# Belarusda "Azərbaycanın xalçaçılıq sənəti" adlı təqdimat keçirilib

Belarusda fəaliyyət göstərən səfirlər, diplomatlar və xarici nümayəndələrin həyat yoldaşlarından ibarət Minsk Beynəlxalq Qadınlar Klubu çərçivəsində Azərbaycan mədəniyyətinin təbliğ olunması məqsədilə "Azərbaycanın xalçaçılıq sənəti" adlı təqdimat keçirilib.




Azərbaycanın Belarusdakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə səfir Ülvi Baxşəliyevin həyat yoldaşı, Almaniya, Türkiyə, İran, Pakistan, Gürcüstan, Suriya, Fələstin, Qazaxıstan, Moldova səfirlərinin həyat yoldaşları, Gürcüstan səfirliyinin müşaviri, Xorvatiyanın Belarusdakı fəxri konsulunun həyat yoldaşı, eləcə də səfirliyin diplomatlarının həyat yoldaşları da iştirak ediblər.

Əvvəlcə səfirin həyat yoldaşı Könül Qəhrəmanova tədbiri açaraq Azərbaycanın zəngin mədəni irsində xalçaçılıq sənətinin mühüm yer tutduğunu, nəsildənnəslə ötürülən bu xalq yaradıcılığı sənətinin 2010-cu ildə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edildiyini bildirib. Azərbaycanda xalçaçılığın inkişafına dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini vurğulayan K.Qəhrəmanova, "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin istifadəyə verilməsi, xalça və xalça məmulatlarının istehsalı, ixracı, ölkə daxilində və xaricdə satışının təşkili, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi məqsədilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında məlumat verib. Həmçinin xalçaçılığın sənət və elm sahəsi kimi bir sıra təhsil müəssisələrində tədris edildiyini vurğulayıb.

Daha sonra səfirliyin üçüncü katibi Mina İmanova "Azərbaycan xalçaçılıq sənəti" adlı təqdimat edib. M.İmanova hazırlanma texnologiyasına görə fərqlənən xovlu və xovsuz xalçalar, eləcə də onun ayrı-ayrı növləri, Azərbaycanda tarixən formalaşmış 7 xalçaçılıq məktəbi, onları fərqləndirən xüsusiyyətlər haqqında ətraflı məlumat verərək hər bir məktəbə məxsus xalça nümunələrini nümayiş etdirib. Həmçinin Azərbaycanın dünya mədəni irsinə töhfəsi hesab olunan, hazırda bir sıra xarici ölkələrin muzey və fondlarında saxlanılan xalça nümunələri haqqında da tədbir iştirakçılarını məlumatlandırıb.

Qeyd edək ki, tədbir çərçivəsində Azərbaycanın turistik imkanlarını, mədəniyyətini və təbiətini, eləcə də "Xarıbülbül" festivalında Qarabağ atlarının iştirakı ilə Azərbaycan milli rəqs nümunələrini əks etdirən videoçarxlar da nümayiş olunub. Həm Azərbaycanın mədəniyyət paytaxtı, həm də musiqi beşiyi sayılan Şuşanın Bülbül, Üzeyir bəy Hacıbəyli, Xurşidbanu Natəvan kimi tanınmış bəstəkar, musiqiçi və yazıçıların vətəni olması vurğulanıb, ilk dəfə 1989-cu ildə keçirilən "Xarıbülbül" musiqi festivalına torpaqlarımızın erməni silahlı qüvvələri tərəfindən işğalından sonra uzun illər ara verildiyi təəssüflə qeyd olunub, Şuşanın 2020-ci ildə işğaldan azad edilməsi ilə tarixən şənliklərin və idman oyunlarının keçirildiyi "Cıdır" düzünün yenidən bu festivala evsahibliyi etdiyi iştirakçıların diqqətinə çatdırılıb.

Daha sonra caz-muğam sintezinin banisi, Azərbaycanın məşhur pianoçusu Vaqif Mustafazadənin əsərləri səsləndirilib.

Azərbaycan.- 2023.- 26 noyabr, № 258.- S.8.